# Unudulmur şəhidlər!

*Azərbaycan eşqi ilə yanırlar,*
*Bu sevgini candan əziz sanırlar,*
*Odur ki, onları daim anırlar,*
*Heç bir zaman unudulmur şəhidlər...*

*Cəsarətli, şərəfli yol seçirlər,*
*Vətən üçün canlarından keçirlər,*
*Bu səbəbdən ürəklərə köçürlər,*
*Heç bir zaman unudulmur şəhidlər...*

*Tarixlərə silinməz iz salırlar,*
*Əbədilik yaddaşlarda qalırlar,*
*Nəsillər onlardan ibrət alırlar,*
*Heç bir zaman unudulmur şəhidlər...*

*Düşmənin başına od ələyirlər,*
*Millətin ruhuna nur çiləyirlər,*
*Müqəddəs zirvəni fəth eləyirlər,*
*Heç bir zaman unudulmur şəhidlər...*

**Firad FUADOĞLU.**

Respublika.- 2023.- 20 yanvar.- S.7.